# Tarix dərslərində qruplarla işin praktik əhəmiyyəti

**Nigar Namiq qızı Ağayarlı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nigar.agayarli@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar söz:** ümumtəhsil məktəbləri, qruplarla iş, tədris, məktəb, təhsil, şagird, müəllim, interaktiv təlim, müasir dərs, metod, əməkdaşlıq, tədqiqat

**Ключевые слова:** общеобразовательные школы, групповая работа, обучение, школа, образование, ученик, учитель, интерактивное обучение, современный урок, метод, сотрудничество, исследование

**Key words:** general educational schools,group work, teaching, school, education, student, teacher, interactive learning, modern lesson, method, cooperation,research

Şagirdlərdə daha yüksək təlim nəticələri əldə etmək üçün onların tədris fəaliyyətinə cəlb etmək səviyyəsini yüksəltmək vacibdir. Bunun tətbiqi isə əməkdaşlıq əsasında qurulan təlim forması zamanı daha məqsədəuyğundur. Beləliklə şagirdlər birgə fəaliyyət göstərdikləri yoldaşları ilə eyni vaxtda öz məqsədlərinə çata bilərlər. Qruplarla iş metodu həm nəzəri, həm də praktiki bir prosesdir. Məsələn sənədlərlə iş zamanı tədqiqatçılıq qabiliyyəti tətbiq edilir və bu zaman praktiki hal baş verir. Həmçinin, illustrasiya materialları ilə iş şagirdlərdə bir çox bacarıqların formalaşmasına imkan verir. Qrup üzvləri illustrasiya materialında öz əksini tapmış siyasi xadimlərin, tarixi şəxsiyyətlərin fərdi xüsusiyyətlərini təhlil edir, illustrasiya materialı üzərində qrup şəklində diskussiya aparırlar. Xəritə üzərində iş isə qrup fəaliyyəti zamanı verilən mövzuya uyğun olaraq hadisənin, neft kəmərinin, dəmiryolunun xəritədə başlanğıc və son nöqtələrini göstərməsi, baş vermiş proseslərə münasibətlərini ifadə etməsi kimi hallar baş verir. Məlum olduğu kimi, diskussiya qrup fəaliyyətində əvəzsiz rola malikdir. Diskussiya - hər hansı bir məsələnin müzakirəsi; hər bir tərəfin mübahisədə həmsöhbətin rəyinə cavab olaraq, problemi tədqiq etmək üçün mövqeyini müdafiə etməsi prosesidir.

Metodik vəsaitlərin məzmununda mövcud olan məsələlərdən biri də qrup işi metodunda dərs prosesində testlərin hazırlanması və tətbiq edilməsi məsələsidir. Qrup işinin təşkili zamanı şagirdlərə iş vərəqlərindəki tapşırıqları testlər formasında da vermək olar. Həmçinin testləri şagirdlər özləri də hazırlaya bilər. Bu zaman şagirdlərdə dərin düşünmə qabiliyyəti formalaşır.

Qruplarla işin təşkili prosesində müəllimin şagirdlərin qarşısına qoyduğu suallar, verdiyi tapşırıqlar həyatla əlaqələndirildikdə daha səmərəli nəticəyə gətirib çıxarır (1, s. 489).

Qruplarla iş zamanı onun didaktik prinsiplərinin əvvəlcədən müəyyənləşdirilməsi çox vacibdir. Qruplarla iş metodunun dərsin sonunda aparılan qiymətləndirilməsi inkişafayönlü, ədalət prinsiplərinə uyğun aparılması məqsədəuyğundur. Qrup işində şagirdlərin fəaliyyətinin qiymətləndirilməsi meyarlarına aşağıdakıları qeyd etmək lazımdır:

1. Qrup üzvləri qarşılıqlı əlaqə əsasında fəaliyyət göstərməlidirlər
2. Biri-birlərinə mane olmadan işləməyi bacarmalıdırlar
3. İşi vaxtında bitirməlidirlər
4. Qrup işi əsnasında, işin yaxşılaşdırılması yollarını tapmağa birlikdə çalışmalıdırlar.
5. Şagirdin qrup işi zamanı müzakirələri hansı fəallıqda iştirak etməsi (1, s. 514).

Qruplarla iş metodundan istifadə zamanı müəllim şagirdlərə psixoloji təsir göstərir, onları motive edir, həvəslə işləmələrinə şərait yaradır, özlərinə inamı artırır. Təlim prosesi iki tərəfin - müəllim-şagird (öyrədən-öyrənən) tərəflərinin qarşılıqlı fəaliyyətindən ibarətdir. Qruplarla iş prosesində interaktiv təlimin mühüm məqsədlərindən biri də şagirdlərdə təfəkkürün inkişaf etdirilməsidir. Bu metod şagirdlərdə nəyinki yaradıcı, həmçinin məntiqi və tənqidi təfəkkürün inkişafına imkan yaradır. Şagirdlər müəllimin təqdim etdiyi materialın əvvəlcədən mövcud problemlərin həlli yollarını, səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyi bacarmalıdırlar.

Qrup işi şagirdlərdə şəxsiyyətin hərtərəfli inkişafını təmin edir. Tədqiqatın digər tərəfi şagird-müəllim arasında pedaqoji münasibətinə əsaslanır. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təşkili zamanı hər bir şagirdin şəxsi keyfiyyətlərinin və yaş xüsusiyyətlərinin nəzərə alınması təlim prosesinin uğurla yekunlaşdırılmasına zəmin yaratmış olur (2, s. 170).

Qrup işi zamanı tədqiqat aparmaq, müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və birgə fəaliyyət bacarıqları formalaşdırmaq üçün əhəmiyyətli və maraqlıdır. Qrup işinin təşkili zamanı müəllim əvvəlcədən şagirdlərin diqqətinə işin məqsədini və öyrəniləcək mövzunu onlarla müzakirə etməlidir. Qrup üzvləri öz aralarında vəzifə bölgüsü aparmalıdırlar.

Dərs prosesinin səmərəli keçməsi şagirdlərin fərdi və kollektiv fəaliyyətinin üzvi şəkildə uyğunlaşdırılmasından çox asılıdır. Qrup işi metodunun uğuru ilk növbədə, qrupun tərkibi ilə bağlıdır. Təcrübə göstərir ki, qrup həm güclü, həm də orta səviyyəli, həm də zəif şagirdlərdən ibarət olduqda daha yaxşı nəticə göstərir. Beləliklə, ilk olaraq tədris olunan mövzunun xarakterindən asılı olaraq sinif bir neçə qruplara bölünür. Hər qrupda 3 nəfər, ən çoxu 6 nəfər olmalıdır. Təsadüfi qruplaşmalardan da istifadə etmək mümkündür. Qruplarda iş zamanı hətda ən zəif, ən utancaq şagird belə aktiv iştirak edə bilir. Şagirdlərin hər biri, qrupda fəal iştirak edərək bacarığını meydana çıxarmağa, qrupunun qələbəsini təmin etməyə can atır. Həmçinin qrup işi metodu şagirdlərə öz fikirlərini qiymətləndirməyə imkan yaradır. Bundan əlavə eyni bir mövzu ilə bağlı müxtəlif baxış və fikirlərin olması barədə təsəvvürə yiyələnirlər. Qruplarla iş metodunun tətbiqi nəticəsində müasir dərs şagirdlərdə araşdırma və nəticə çıxarma bacarığını formalaşdırır (3, s. 63). Qruplarla iş zamanı müxtəlif metodlardan istifadə etmək mümkündür. Misal üçün:

Təlimin ən mühüm metodik üsullarından biri - diskussiyadır. Bu zaman qrup üzvlərində dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli düşüncəyə hörmət etmək, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır. Diskussiya vərdişlərini inkişaf etdirmək üçün ən yaxşı metodlardan biri də akvarium üsuludur. Şagirdləri 2 qrupa bölünürlər. Bir qrup stullarda əyləşərək daxili dairə təşkil edir: onlar müəllimin təqdim etdiyi mövzu ətrafında müzakirə aparırlar. Digər qrup stullarda əyləşərək xarici dairə yaradırlar: onlar diskussiyanın qaydalara uyğun olaraq keçib-keçmədiyini müşahidə edəcəklər. Diskussiya üçün 15-20 dəqiqə vaxt verilir, xarici dairənin üzvləri qiymətləndirir və qruplar yerlərini dəyişərək yenidə müzakirəyə başlayır.

"Qərarlar ağacı" usulu: Mövzu müəllim tərəfindən izah edilir və şagirdlərlə birlikdə müzakirə edilir. 4–6 nəfərdən ibarət qruplarda şagirdlər problemin üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, "+" və ya "–" işarəsinin qarşısında müvafiq qaydada qeydlər aparırlar. Son olaraq nəticələr cədvəlin qərar hissəsində yazılır və üstü örtülür. Sonda müəllim nəticələri ümumiləşdirmək üçün qruplarla müzakirə aparır.

Problemli vəziyyət. Bu üsul şagirdlərdə tənqidi və məntiqi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim müzakirə suallarını hazırlayır. Şagirdlər 4–5 nəfərlik qruplara bölünürlər. Vərəqlər paylanır. Hər bir qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Sonda qruplar sinifdə ümumi müzakirə aparılır (4, s. 38).

Qrup işi metodu şagirdləri idrak prosesinə cəlb edilməsinə kömək edir. Hər bir uşaqda öz fikrini bildirmək və başqasını dinləmək imkanı yaranır. Qrup işi metodunun 3 formasını qeyd etmək olar:

1. Qruplar müxtəlif tədris materialları əsasında verilən movzunun üzərində işləyirlər
2. Əgər verilmiş material böyük həcimli deyilsə, o zaman qruplar ondan eyni vaxtda istifadə edə bilirlər
3. Rotasiya metodu.Qruplar ardıcıl şəkildə eyni material üzərində işləyirlər.

İlk olaraq tədqiqat sualı dəqiq və lakonik olmalıdır, şagirdləri tədqiqata sövq etməlidir, istiqamət verməlidir. Müəllim məqsədləri, planı və işin müddətini müəyyən etməlidir. Qrup üzvlərinin vəzifələrini düzgün bölməli, ehtiyac olarsa şagirdlərin işinə müdaxilə etməli; qrup işi prosesində yaranan problemləri vaxtında aşkar etməli, şagirdlərin diqqətini buna cəlb etmək və həmin problemlərin həllinə köməklik göstərməlidir. Misal olaraq dərs nümunəsi göstərək:

**Mövzu:** II Dünya Müharibəsinin başlanmasının başlıca səbəbləri və nəticəsi. Məqsəd:

1. II Dünya müharibəsinin başlanma səbəblərini, iştirak edən dövlətlərin məqsədlərini izah etmək
2. II Dünya müharibəsində iştirak edən dövlətlərin müharibə sonrası ərazilərində baş verən dəyişikliklərini xəritədə göstərmək, nəticələri təhlil etmək.

**Təlim forması:** qruplarla iş

**Resurslar:** Dərslik, illustrasiyalar, xəritə, İKT

**Dərsin mərhələləri:**

**Motivasiya** üçün şagirdlərə II Dünya Müharibəsinə aid müxtəlif kadrlar, hadisə şəkilləri nümayiş etdirmək olar. Motivasiya dərsin ən vacib komponentidir-təfəkkür prosesini hərəkətə gətirir və şagirdlərin idrak fəallığına səbəb olan prosesdir.

**Tədqiqat sualları:** II Dünya Müharibəsinin başlanmasının başlıca səbəbləri hansılardır Müharibədə iştirak edən dövlətlərin məqsədləri nə idi? Müharibənin gedişatında hansı əməliyyatlar aparıldı? Müharibə hansı nəticələrlə yekunlaşdı?

Tədqiqat sualının ardınca qruplara tapşırıq verilir.

I Qrup: II Dünya müharibəsinin başlanma səbəbləri

II Qrup: Nasist bloku (əsas iştirakçılar - Almaniya, İtaliya və Yaponiya)

III Qrup: Antihitler koalisiyası (əsas iştirakçılar - SSRİ, ABŞ, Britaniya və Fransa).

IV Qrup: II Dünya müharibəsinin nəticələri, müharibə sonrası ərazi dəyişikliklərini xəritədə göstərmək.

Qruplar resurslardan istifadə edərək tədqiqat aparır, fikir mübadiləsi edirlər. Qrup üzvləri birlikdə ümumi məqsədə çatmağa cəhd edir və qarşılıqlı münasibətlər yaradılır. Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər və müzakirə həyata keçirilir.

**Yaradıcı tətbiqetmə.** Klaster üsulundan istifadə edərək şagirdlər II Dünya Müharibəsinin başlanma səbəblərini və nəticələrini qeyd edirlər.

Müəllimin müəyyən etdiyi meyarlara əsasən qiymətləndirmə aparılır. Qrup işinin qiymətləndirilməsi verilən meyarlar əsasında və ya müəllim tərəfindən, şagirdlərin qarşılıqlı qiymətləndirməsi, qruplararası qiymətləndirmə şəklində keçirilə bilər. Qrup işinin səmərəli təşkil olunması müəllimin öz vəzifələrini, şagirdin isə iş qaydalarını bilməyindən asılıdır (5, s. 19).

**Məqalənin aktuallığı.** Göstərilən dərs nümunəsi əsasında tarix dərslərində qruplarla işin praktiki əhəmiyyəti təhlil edilmiş, dərs prosesi zamanı şagirdləri tədqiqata sövq edməsi, fəallaşması göstərilmişdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə göstərdiyimiz nümunələr əsasında şagirdlərin nəticə çıxarmaq, təqdimetmə, müqayisə etmə, dəyərləndirmə, analizetmə və s. kimi fəaliyyətlərinə qiymət verilmiş, tarix dərslərində qruplarla işin praktiki əhəmiyyəti təhlil edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** İrəli sürdüyümüz metodik məsləhətlər ümumtəhsil məktəblərinin tarix müəllimləri və pedaqoji ixtisaslı kadrlar üçün faydalı ola bilər.

## Ədəbiyyat

1. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı: ADPU-nun nəşriyyatı, 2014, 668 s.
2. Əliyev İ.İ Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Naxçıvan: Əcəmi, 2017, 280 s.
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" fənni üzrə təhsil proqramı (kurikulumu). Bakı, 2013, 144 s.
4. Hüseynov E., Bəhrəmova S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün "Ümumi tarix" fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı: Şərq-Qərb, 2018, 148 s.
5.Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı: UNICEF, 2007, 156, s.

**Н.Н. Агаярлы**

## Практическое значение работы с группами на уроках истории

### Резюме

В статье исследованы вопросы связанные с работой группами при обучении истории в средних школах. В статье подчеркивается важность эффективных интерактивных методов для повышения качества образования в средних школах.

**N.N. Aghayarli**

## Practical significance of working with groups in history lessons

### Summary

The article explores issues related to the work of groups in teaching history in middle schools. The article emphasizes the importance of effective interactive methods for improving the quality of education in middle schools.

**Redaksiyaya daxil olub:** 25.07.2022